# Həftəlik

# *Bülleten*



**104**

**15 Avqust 2025**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycan-ABŞ ticarət əlaqələrinin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəfin ABŞ-nin İxrac-İdxal Bankının prezidenti və sədrinin baş müşaviri Dan Neqreanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü baş tutub.

Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov sosial şəbəkə hesabında paylaşım edib.

O bildirib ki, görüş Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri çərçivəsində baş tutub.

"Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı və şaxələndirilməsi sahəsində əldə olunan nailiyyətləri vurğuladıq.

Ölkə iqtisadiyyatında yüksək əlavə dəyər yaradan sahələrin inkişafı və xarici tərəfdaşlarla əlaqələrin möhkəmləndirilməsi üçün açılan yeni perspektivləri qeyd etdik.

Azərbaycan və ABŞ arasında ticarət əlaqələrinin genişləndirilməsini dəstəkləyən alətlərin tətbiqi imkanları və əməkdaşlığın dərinləşdirilməsi istiqamətində gələcək addımlar barədə fikir mübadiləsi apardıq", - deyə paylaşımda qeyd edilib.



**30-cu Yubiley Xəzər İnşaat Həftəsinə hazırlıqlar tam sürətlə davam edir**

Oktyabrın 14 –16-da Bakı Ekspo Mərkəzində keçiriləcək 30-cu Yubiley Xəzər İnşaat Həftəsinə hazırlıq işləri tam sürətlə davam edir.
Regionun inşaat sektorunda aparıcı sənaye platformalarından olan tədbir çərçivəsində 30-cu Yubiley Azərbaycan Beynəlxalq İnşaat Sərgisi – "BakuBuild", 5-ci Yubiley Azərbaycan Beynəlxalq Qarabağın Bərpası, Yenidənqurması və İnkişafı Sərgisi – "Rebuild Karabakh"sərgisi baş tutacaq.
Bildiyiniz kimi, ATMİA-nın tərəfdaş olduğu Azərbaycanın ən böyük tikinti sərgisi BakuBuild 2025 sektorun liderlərini bir araya gətirəcək.



**Bu il KOB subyektlərinin dövriyyəsi 48 milyard manatdan çox olub**

Sahibkarlıq subyektlərinin bölgüsü meyarlarına uyğun olaraq KOB-ların böyüməsi və dövriyyəsinin artması onların yaradılan imkanlardan səmərəli istifadə edərək davamlı inkişaf etməsini və iqtisadiyyatda payının yüksəlməsini göstərir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, sahibkarlığın inkişafı sahəsində ölkəmizdə həyata keçirilən məqsədyönlü dövlət siyasəti, KOB-lara göstərilən dəstək tədbirləri və təşviqlər öz müsbət nəticəsini verir. 2024-cü ildə əvvəlki illə müqayisədə sahibkarlıq subyektlərinin bölgüsü meyarlarına uyğun olaraq böyüyən və dövriyyəsi artan KOB subyektlərinin sayı çoxalıb.

Belə ki, 2023-cü illə müqayisədə ötən il sahibkarlıq subyektlərinin bölgüsü meyarlarına uyğun olaraq böyüyən KOB-ların sayı 14 faizə yaxın artıb. KOB subyektlərinin dövriyyəsi isə əvvəlki illə müqayisədə 2024-cü ildə 10 faizə yaxın artaraq 48 milyard manatdan çox olub. Hər iki göstərici üzrə artım KOB-ların sahibkarlıq fəaliyyəti üçün yaradılan imkanlardan və ölkədəki əlverişli biznes mühitindən səmərəli istifadə edərək davamlı inkişafının və iqtisadiyyatda payının yüksəlməsinin göstəricisidir.



**Dövlət proqramına uyğun olaraq paytaxtda yeni yolun inşası davam etdirilir**

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı”na uyğun olaraq, Akademik Həsən Əliyev küçəsi - “Koroğlu” metrostansiyası avtomobil yolunun Akademik Həsən Əliyev küçəsi - Müzəffər Nərimanov küçəsinədək olan hissəsinin tikintisi işləri sürətlə davam etdirilir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib ki, yeni yol Ziya Bünyadov və Heydər Əliyev prospektlərinə paralel olaraq inşa edilir. Dövlət Proqramına uyğun olaraq, yeni avtomobil yolunun akademik Həsən Əliyev küçəsi - Müzəffər Nərimanov küçəsinədək olan hissəsi 6 hərəkət zolaqlı olmaqla uzunluğu 3,9 kilometr (əlavə olaraq 2,6 kilometr uzunluğunda qollar, ramplar və yanaşma yolları) təşkil edəcək. Avtomobil yolunda ümumi uzunluğu 2210 metr olan 4 tunel və ümumi uzunluğu 112 metr olan 3 yeraltı piyada keçidinin tikintisi nəzərdə tutulur.



**Sənaye zonalarının qeyri-neft sənayesi məhsullarının istehsalında və ixracında xüsusi çəkisi artıb**

Son dövrlərdə ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq yaradılan sənaye zonalarının qeyri-neft sənayesi məhsullarının istehsalında və ixracında xüsusi çəkisi artmaqda davam edir.

**Sənaye parklarının rezidentləri 520 milyon manatdan çox vəsaitlərinə qənaət ediblər**

2025-ci ilin I yarısında 1,83 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının qeyri-neft sənayesi məhsullarının istehsalında xüsusi çəkisi 18,7%, qeyri-neft sənayesi məhsullarının ixracında isə 28,3% (583,5 milyon manat) olub.

Qeyd edək ki, hazırda ölkəmizdə 13 sənaye zonası mövcuddur. Sənaye zonalarında investisiya portfeli 8 milyard manatdan çox olan 160 sahibkarlıq subyekti rezident, 12 sahibkar isə qeyri-rezident kimi qeydiyyata alınıb.



**Hörmətli sahibkarlar!**

Hörmətli Sahibkarlar! Bildiyiniz kimi, ATMİA-nın tərəfdaş olduğu Azərbaycanın ən böyük tikinti sərgisi BakuBuild 2025 sektorun liderlərini bir araya gətirəcək. Məhsul və xidmətlərini minlərlə potensial müştəri və tərəfdaşa təqdim etmək imkanını yaradılması məqsədilə mikro və ya kiçik sahibkar statusu təsdiq olunan ATMİA üzvləri sərgidə KOBİA-nın dəstəyi ilə paket olaraq yalnız 4 kv.m. almaq şərti ilə sahə və hazır stendin qiyməti 2000AZN + 18% olacaq. İştirak və detallar üçün 01.09.25 kimi ATMİA ilə əlaqə saxlamağınız xahiş olunur.
📞 010 250 03 24.

**Sərginin adı: SUPERBUILD EXPO 2025**

**Tarixlər: 2025-ci ilin avqustunda,**

**Məkan:** Cakarta Beynəlxalq Sərgisi (JIExpo), Cakarta (İndoneziya)

İndoneziyanın tikilmiş ətraf mühit üçün ən böyük ticarət sərgisi, 3 gün davam edən əsas sənaye tədbiri sənaye peşəkarlarına tikinti materialı, texnologiya və tikinti layihələrinin hər mərhələsi üçün məhsullar əldə etməyə imkan verən 12 ixtisaslaşmış tədbirlə yanaşı keçirilir.

**Sərginin adı: BELARUSSIAN CONSTRUCTION WEEK 2025**

**Tarixlər: 2025-ci ilin sentyabrında,**

**Məkan: Minsk-Arena**

Pəncərə, Qapı, Dam, Şüşə, Keramika sərgisi

**Sərginin adı: The International Exhibition For Construction & Building Materials**

**Tarixlər: 6-8 sentyabr 2025-ci il,**

**Məkan:** Egypt International Expo center EIEC Cairo, Egypt

Tikinti və İnşaat, Tikinti materialları

**Sərginin adı: BİG 5 GLOBAL**

**Tarixlər: 24-27 oktyabr 2025**

**Məkan: Dubay**

Beynəlxalq Tikinti və İnşaat və İnşaat Materialları Sərgisi.

**Fövqəladə Hallar Nazirliyinin Əsasli Tikinti İdarəsi Tender Elan Edir.**

Fövqəladə Hallar Nazirliyinin Əsasli Tikinti İdarəsi Tender Elan Edir. Elanda "Fövqəladə Hallar Nazirliyinin Əsasli Tikinti İdarəsi" Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin 3 çıxışlı Cəbrayıl Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasının tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Orxan Bədəlov, Müqavilə və satınalmalar sektorunun böyük məsləhətçisi
Email : orkhan.badalov@fhn.gov.az
Əlaqə telefonnu: +994 12 512 30 11



**Fövqəladə Hallar Nazirliyinin Əsasli Tikinti İdarəsi Tender Elan Edir.**

Fövqəladə Hallar Nazirliyinin Əsasli Tikinti İdarəsi Tender Elan Edir. Elanda "Fövqəladə Hallar Nazirliyinin Əsasli Tikinti İdarəsi" Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin 4 çıxışlı Zəngilan Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasının tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Orxan Bədəlov, Müqavilə və satınalmalar sektorunun böyük məsləhətçisi
Email : orkhan.badalov@fhn.gov.az
Əlaqə telefonnu: +994 12 512 30 11



**Xankəndi Şəhərində, Ağdərə və Xocalı Rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti açıq tender elan edir.**

Xankəndi Şəhərində, Ağdərə və Xocalı Rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti açıq tender elan edir.
Elanda Ağdərə şəhərində çoxmənzilli yaşayış binasının mənzillərinin cari təmiri işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Mahir Sadıqov, Koordinator
Email : mahir.s@xankendi-phs.gov.az
Əlaqə telefonnu: +994 10 265 99 79



**Baş Mil-muğan Kollektoru İstismar İdarəsi Tender Elan Edir.**

Baş Mil-muğan Kollektoru İstismar İdarəsi Tender Elan Edir.
Elanda "Baş Mil-muğan Kollektoru İstismar İdarəsi" təmir-tikinti işləri üçün tikinti materiallarının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Məmmədov Məmmədağa, mühasib
Email: mmemmedov.email@gmail.com
Əlaqə telefonu: +994 50 974 66 00



**"Azəristiliktəchizat" ASC açıq tender elan edir.**

"Azəristiliktəchizat" ASC açıq tender elan edir.
Elanda müxtəlif armaturaların (siyirtmə, klapanlar və sair) satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zamiq Səmədov, satınalmalar üzrə mütəxəssis
Email : tender@azeristilik.gov.az
Əlaqə telefonnu: +994 77 419 00 09



**"İnnovasiya Və Təchizat Mərkəzi" Publik Hüquqi Şəxsi Tender Keçirir.**

"İnnovasiya Və Təchizat Mərkəzi" Publik Hüquqi Şəxsi Tender Keçirir.
Elanda "İnnovasiya Və Təchizat Mərkəzi" Publik Hüquqi Şəxsi Ak.Mirqasımov adına RKX-n 1-ci korpusuna bitişik qəbul qeydiyyat binasının tikintisi və ərazidə görüləcək digər təmir işləri ilə əlaqədar layihə-smeta sənədlərinin hazırlanma xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elçin Həsənov, Aparıcı Məsləhətçi
Email: ehasanov@itm.gov.az
Əlaqə telefonu: +994 12 310 17 70



